# Ömrün əzablı yolu



**Şirxan Aranlı**

*(Əvvəli ötən sayımızda)*

**Romandan bir parça**

Gizli pıçıltı qadınlar arasında qanad açdı:

-"Oy, ilahi,qızda üzə bax, deyir evinə gəlin köçməmiş gəlib sənə gəlinqız olacam, nişan paltarınıda geyəcəm"

-"Sağ olsun belə qızları, hər qızın işi deyil belə addım atıb bir dəfəlik bəxtini bağlaya"

-"Halal olsun ata -anasının ona verdiyi tərbiyə".

-"Yazıq qız ömrünü bədbəxt eləyir"...

Əsgərlər adamları aralayıb tabutu yerindən qaldırdı. Cavan komandir Mələk xalanı qucaqlayıb təskinlik verdi.

-Ana, Qorxmaz sənin oğlun olsa da bu gün biz onu tək sənin deyil, bütün el- obanın, Azərbaycanın qorxmaz, igid oğlu kimi son mənzilə yola salırıq.

Onun qəhrəmanlığı qarşısında hamımız baş əyirik ana. Sağ ol ki, belə oğul böyüdüb, vətənin dar günündə vətənə vermisən !

Komandir bu sözləri deyib bir daha Mələk xalaya səbirli, dözümlü olmağı tapşırdı.

Sonra adamlarla bərabər tabutu götürüb həyətdən cıxdılar.

Kişilər uşaqları və qadınları dağıdıb evlərinə göndərdi. Özləri isə tabutla bərabər kəndin qəbiristanlığına doğru üz tutdular.

Qəbiristanlıqda dəfn zamanı elə bil hamı bir - biri ilə hal- əhval tutmağa çalışırdı.

-Balam Əmrahgillərdən heç gözümə dəymir.

-Dünən gecə ilə köçüb kənddən gediblər.

-Heç Əhməddə görünmür, belə yerdən qalmazdı.

-Kənddə yoxdu, gedib uşaqları köçürüb aparmaq üçün, yer - yurd axtarmağa. Düzdə eləyir, neyləsin əskərlər deyir bax bu komandir olmasa kənd çoxdan əldən getmişdi. Kəndin alınmasın istəyənlər var...

-Allah ermənilərin bəlasını versin, necə camaatı pərən - pərən saldı...

Mələk arvad tabutu qucaqlayanda dedim:

-Sən ölesən şübhələnib, tabutu mütləq açdıracaq.

-Nədən şübhələnərdiki ...

-Eşitməmisən, bu yaxınlarda Köhnə qaya kəndinə bir əsgər tabutu gətiriblər. Anası tabutu qucaqlayıb, başlayıb iyləməyə, deyib burdan mənim oğlumun iyi gəlmir, bu mənim oğlum deyil...

Mütləq tabut açılmalıdı, yoxsa ürəyim partlayar. Məcbur olub tabutu açıblar.

Məlum olub ki, yazıq arvad düz deyirmiş, tabutdakı onun oğlu deyilmiş. Sən demə məsciddə iki meyidi bir yerdə yuyublar, tabuta qoyanda ünvanı səhv salıblar, tabut başqa yerə -Beyləqana getməliymiş. Əlüstü tabutu qaytarıb aparıblar Beyləqana. O, zaman çatıblar ki, artıq orada meyidi torpağa tapşırırlar.Qəbirstanlıqda tabutları dəyişdirib gətirirlər. Arvad tabuta yaxınlaşan kimi deyir:

- Hə bu Həsənimin tabutudur, onun iyi gəlir...

-Kərəminə şükür xudaya, gör nələr olurmuş !.

Dəfn başa çatanda əskərlər yaylım ateş açdılar. Ateş açılandan sonra quldur ermənilər kəndi atəşə tutdu. Komandir tez hava telefonu ilə səngərdə olan döyüşçülərlə əlaqə saxlayıb lazımı tapşırıqlar verdi. Çox keçmədi ki, cəsur döyüşçülərimizin açdığı cavab atəşi ilə düşmənin atəş nöqtələri susduruldu.

Dəfndən sonra adamların çox hissəsi Mələk xalanın qapısına, bəziləri isə öz evilərinə çəkilib getdi. Kəndin adətinə görə dəfndən sonra adamlar hüzr yerinə gəlib bir stəkan çay içəndən və hüzr sahibinə baş sağlığı verəndən sonra dağılıb gedirdi.

Kərim kişidə bir qədər hüzr yerində oturandan sonra qayıdıb evlərinə gəldi. Heç halı özündə deyildi. Bədbin, ümüdsüz adamlar kimi nə edəcəyini bilmirdi.

Evə geçib yerdə uzun döşəkçənin üstündə oturub mütəkkəyə söykəndi. Çıxarıb papiros yandırdı. Tüstüsünü sinəsinə sümürüb sonra havaya buraxdı. Otağın yarım qaranlıq, boğunuq havasını siqaretin acı tüstüsü bir azda boğdu. Gecə pəncərənin qırılan şüşə erinə arvadı Kamilə qəzet yapışdırmışdı. Ona görə də otaq yarı qaranlıq görünürdü.

Həyətdə əl - ayaq işi görən Kamilə ərinin bikef evə keçdiyini görüb özü də evə keçdi. Dinməz söyləməz gəlib onun yanında oturub qızı Zərifi səslədi:

-Ay qız, atana bir stəkan çay gətir.

Sonra üzünü ərinə tutub :

- A kişi, qanın nə yaman qaradır ?

-Neyləyim ay arvad, hec bu işlərdən baş aça bilmirəm, axırı nə olacaq. Allah bilir. Hüzr yerində elə şeylər danışırlar ki, adamın başından tükü qabarır.

- Nə deyirlər a kişi ?

- Kamilə, belə getsə biz də köçəsi olacayıq.

- Hara a kişi, nə danışırsan ?

- Elə məni də düşündürən odur - hara ?

- Yəni elə ciddi bir şey var ?!

- Var arvad, var. Yalan gerçək deyirlər maraqlı adamlar var ki kəndi boşaltdırıb ermənilərə təhvil versin:

- Nə danışırsan a kişi, eləmi şey olar ?

-Hec məndə inanmıram, nə bilim, belə danışırlar.Deyirlər cəbhədə gözə görünməz xain qüvvələr var, xəlvətə salıb igid oğullarımızı bəzən arxadan vururlar.

Elə yazıq Qorxmazı da deyirlər bizimkilər vurub.

Erməni işğalında olan bir kəndimizi qaytarıb alıblar, Qorxmaz kəndə ilk girənlərdən olub. Binanın üstündən erməni bayrağını çıxarıb, Azərbaycan bayrağını sancanda arxadan vurublar. Deyilənə görə o zaman kənddə bir nəfərdə erməni qalmayıbmış.

-Allah bəlasını versin belələrinin, elədə nankorluq, xainlik olarmı ?

- Olanda olur arvad. O, vaxt Bakıda mitinqlərdə demirdilər ki, sapı özümüzdən olan bəzi baltalar özümüzə qənim kəsilib

- Kərim, dilim ağzım qurusun, belə şeyləri görəndə deyirəm nə yaxşı ki, o vaxtı Şahinin adamları elçi düşəndə Zərifi vermədin, dedin ki, qoy dava qurtarsın sonra. Eşitdin müəllimin qızı deyir gəlib oturacam Mələk xalanın yanında, ölənəcən ona gəlin- qız olacam. Allah o gündən saxlasın.

-Şahin yaxşı oğlandı arvad, gözümüzün qabağında böyüyüb, deyirsən qızı da lap orta məktəbdən istəyir. Sağlıq olsun qoy müharibə qurtarsın, cəbhədən sağ -salamat qayıdıb gəlsin, qızı ondan artığına verməyəcəyik ki ?

-Nə deyirəm a kişi, təki o gün olsun. Mətindən də yaman nigaranam, nə vaxtdandı ondan xəbər - ətər yoxdu. Görəsən vəziyyəti necədir ?

-Narahat olma arvad, uşaq deyilki, Allaha şükür böyük komandirdi, əlinin altında da nə qədərdə əsgəri. De görüm, bilməmiş olmazsan Zəriflə Şahinin yenə də əlaqələri varmı ?

- Var a kişi, var. Deyir hətta bu yaxınlarda qızı yuxuda pis görüb. Bir günlüyə kəndə gəlməyə icazə istəyib, lakin komandir icazə verməyib. İcazəsiz qaçıb gələndə yolda tutub qubbaxda salıblar. Sonra qıza xəlvət məktub göndərib hal - əhval tutub.

Zərif deyəsən hiss etdiki söhbət ondan gedir, odur ki, dinməz, söyləməz gətirib iki stəkan çay qoyub getdi. Kərim kişi heç çayını içməmişdi ki, yenidən atışma başladı. Yer- göy lərzəyə gəldi. Mərmilərin bir neçə qəlpəsi gəlib həyətə töküldü.

-Ay uşaqlar düşün aşağı zirzəmiyə, - deyə Kərim kişi arvad uşağı harayladı, özü də aşağı düşdü.

Belə hal demək olar ki, hər gün təkrar olduğundan kənddə hamı işini bilirdi, atışma olan kimi evə, yaxud zirzəmiyə girirdilər. Atışma kəsiləndən sonra yenə hamı həyət - bacaya çıxır, öz işləri ilə məşğul olurdu.

Bu dəfəki atışma heç deyəsən kəsənə oxşamırdı. Artıq iki saatdan artıq idi ki, atışma gedir, bəzən səsi də lap yaxınlıqdan gəlirdi. Kənd böyük təşviş içində idi.

Kərim kişinin evinin yaxınlığında qonşu Saleh kişinin, Nəbinin də evi od tutub yandı. Arvad, uşaq həyət -bacaya tökülüb qonşu evlərə qaçanda Nəbini vurdular. Nəbi başından yaralandığından yıxılmağı ilə keçinməyi bir oldu. Arvad uşağın ahı, fəryadı ərşə bülənd oldu. Evlərdən qaçıb getmək istəyənləri erməni snayperləri nişan aldı. Bir neçə nəfər də yolda yaralandığından camaat daha kənddən aşağı rayon istiqamətinə gedə bilmədi, qayıdıb dağlara tərəf üz tutdular. Kənd pərən - pərən düşdü. Kimi arvad uşağı götürüb dağlara çəkilir, kimidəki evlərdə və zirzəmilərdə gizlənib ürək ağrısı, göz yaşı ilə taleyin son qismətini gözləyirdi.

Sonsuz həyəcan içində olan Kərim kişinin beynindən bir fikir keçdi: "Necə olursa olsun Nəbinin cəsədini yerdən götürüb zirzəmiyə gətirmək, kənddən çıxası olarsa onu da aparıb bir yerdə dəfn etmək". Bu fikirlərlədə zirzəmidən çıxıb meyidə doğru sürünəndə güllələr başının üstündə vıyıldadı. Zirzəmidən arvad - uşaq qışqırdı. Məcbur olub yenidən qayıdıb zirzəmiyə girdi.

Axşam üstünə yaxın atışma səngiməyə başladı. Artıq atəş səsləri uzaqdan gəlirdi. Yəqin ki döyüçülərimiz erməniləri geri oturtmuşdu. Adamlar yenidən zirzəmilərdən eşiyə çıxdılar. Hüzr yerinə -Mələk xalanın həyətinə yenə də adamlar gəlməyə başladı.

Kəndin böyük əksəriyyəti isə Nəbinin qapısına axışdı. Mərdanlı kəndi bir gündə ikinci övladını torpağa tapşırmalı oldu. Axşam kəndin kişilərinin bir hissəsi Nəbinin, bir hissəsi isə Qorxmazın hüzr yerinə toplaşmışdı. Mələk xala tək qadın olduğundan Qorxmazın hüzr yerində kəndin bütün adamları fəallıq göstərir, canıyanlıq göstərirdi. Əsas təşkilatçılığı isə Cahangir müəllim edirdi.

Məclisin gur yerində molladan icazə alıb məclisdə oturanlara müraciət etdi:

-Ay camaat iki -üç saat bundan əvvəl kənddə yaranmış vəziyyətə bir daha hamımız şahid olduq. Hər dəqiqənin bir hökmü var. Kəndin vəziyyəti doğurdan da ağırdır. Sabah nə olacaq heç kəs bilmir, təklif edirəm ki, evində az - çox silahı olan kişilər hər vaxt əli silahlı hazır olsunlar. Kəndə erməni girərsə, yaxud köçəsi olarıqsa az - çox düşmənin başını qatıb camaatın salamat çıxmasına kömək eləsin.

Kəndin içində qəfil hadisə zamanı bir -birinizi səsləyin hal - əhval tutun ki, kimsə -kiməsə yardım edə bilsin. Qocaları, imkansızları himayəyə götürmək lazımdır. Mən özüm Mələk arvadı öz himayəmə götürüb hüzürdən sonra öz evimə aparacam, həmişəlik bizdə qalsın. Deyir şər deməsən xeyir gəlməz, bəlayi- ehtiyat Allah eləməmiş kənddən çıxası olarıqsa hamı biri - birinə üz tutub gedəcəyi yeri nişan versin, əlaqə saxlaya bilək. İndiyə qədər yurdgahımız, gorgahımız bir olub, hara düşəriksə heç olmasa yenə də ölümüzdən dirimizdən xəbərimiz olsun. Mənim bu sözlərim heç kəsi ruhdan salıb əl -ayağını soyutmasın, hər kəs öz işi ilə təsərrüfatı ilə məşğul olsun. Nə qədər ki, cəbhədə igid oğullarımız var qorxmayın. Gördünüz iki- üç saat bundan əvvəl erməni başımıza od yağdırırdı, indi səsi kəsildi. Allah qoysa həmişə də belə olacaq.

Əvvəlki kimi baş - başa verib, can bir qəlbdə yaşayacağıq. Mərdanlıları yurd-yuvasından eləmək elədə asan deyil. Tanrı köməyiniz olsun!